# "...ƏR OLAN MEYDANƏ GƏLİN"
## (Fədainin yaradıcılığı kontekstində)

**Mobil Aslanlı Huntürk**
*Bakı Dövlət Universiteti*

XVI əsr Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biri də Fədai Təbrizidir. Ədəbiyyatımızda «Divanı» və «Bəxtiyarnamə» adlı poeması ilə məşhur olan şair haqqında ilk bilgiləri Şah İsmayıl Xətainin oğlu, dövrünün görkəmli ictimai-siyasi xadimi, tanınmış qələm ustası,üləma şəxsiyyəti Sam Mirzə özünün məşhur «Töhfeyi-Sami» adlı təzkirəsində göstərmişdir.

Şairin feodal zülmü altında əzilən xalq kütlələrinin faciəli həyatı, habelə həmin zümrələrin öz hüquqlarını müdafiəyə qalxdığını əks etdirən «Bəxtiyarnamə» əsəri dövrünün ictimai-siyasi tarixini, Azərbaycan ədəbi dilinin inkişaf yolunu öyrənmək və s. kimi bir sıra bədii, elmi aspektlər baxımından maraqlı olduğu kimi ona fiziki tərbiyə, fiziki kamillik və qəhrəmanlıq müstəvisi kontekstində yanaşmaq bu günkü müstəqil, suveren ölkəmizin mənəvi xəzinəsini mühüm aktuallıq tələb edir.

Əsər dövrünün tanınmış əzəmətli hökmdarlarından olan Kirman şahı Azadbəxt-dən və onun cəngavər dəstəsində cəmlənmiş hünərvər igidlər ordusu barədə başlayır:

Ərənlərdən eşitdim bir hekayət,
Ki, ravi söyləmişdir bir rəvayət,
Əcəm mülkündə sultan ibni-sultan,
Özü xaqani-məğrur, şahi-dövran[1].

Məmləkətin varlı-dövlətli, adlı-sanlı padşahı olan Azadbəxt öz sübhəsanlarının birinin Gülcəmal adlı qızına evlənir. Şair yaraşıqda tayı-bərabəri olmayan bu qənirsiz türk gözəlinin heyrətamiz füsunkarlığı barədə yazır:

O qız ki, hər baxışda can alarmış,
Gözəllər hüsnünə heyran qalarmış[2].

Göründüyü kimi, Fədai nəzmə çəkdiyi yaraşıqlı, hüsnü-cəmalı ayə bənzər türk pərisinin gözəlliyi ilə yanaşı, onun cismani sağlamlığını, fiziki yetkinliyini də ön plana çəkir. Şairə görə, zahiri gözəlliyin, daxili saflığın, ruhi təmizliyin dərinliyində, habelə onların həmahəng vəhdətinin təmin edilməsində fiziki kamillik müstəsna əhəmiyyət kəsb edir.

Poemada qeyd edilir ki, qızın atası zahirdə Kirdiman şahına itaət edir, lakin batində ona qəlbən kin-küdurət bəsləyir, onun bu şərəfsiz əməlinə heç cürə dözə

---

[1]Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 7.
[2]Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 7.

bilmir. Odur ki, əmir fitnə-fəsad düzəldib şaha qarşı mübarizəyə qalxmaq fiktrinə düşür və öz yaxınlarını yığıb məşvərət keçirir.

Beləliklə, Əmir özünün mütəşəkkil dəstəsini yığıb qiyam qaldırmağa cəhd edir. Özü kimi hünərvər oğulları ətarfına cəm eyləyib, lazım əsləh və hərbi ləvazimatları toplayaraq güclərini səfərbər edib döyüşə girişirlər. Belə bir möhtəşəm ordunun qarşısında tab gətirməkdə aciz olan şah, şəhərdən qaçmaq məcburiyyətində qalır.

Belə ixtişaş və qaçqınlıq ərəfəsində padşahın arvadı doğur. Onun Gülcəmal xanımı həyata dürüst, qəşəng bir fidan oğul gətirir. Onlar bu oğlan uşağını tələm-tələsik bulaq başına qoyub bir güclə qaçıb canlarını qurtarırlar.

Beləliklə, şahın dəstəsi xeyli səfərdən sonra qonşu dövlətin sultanı Dadpərvərə rənah gətirirlər. Azadğəxtin sığındığı Dadpərvər şah xilaskar dəstəsindən ibarət basılmaz ordusundakı qolu zorba, yekəpər oğulların rəşadəti sayəsində onları düşmənlərdən mühafizə edir:

Binayi-cəng üçün atlı, piyadə,
Təmamən hazır olsun pəhləvanlar,
Döyüşdə ad qazanmış qəhrəmanlar,
Hücuma hazır olsun mərdi-meydan...
Biri birinə çün əl açdı ləşgər,
Vuruşdu qeyrət ilə pəhləvanlar,
Töküldü hər tərəfdən çoxlu qanlar.
Sınıb ordu ələm oldu nikunsar,
Qırıldı ləşgəri düşmən nə ki var»[1].

Beləliklə, Kirman padşahı yenidən öz taxt-tacına sahib olur və əvvəlki qayda üzrə həmin xoşbəxt günlərini, firavan dövrlərini yaşamağı davam edir. Lakin yağı düşmənin təqibi nəticəsində yolda qoyub getdikləri ciyərparasının sonrakı taleyi barədə padşahın ailəsi heç cür xəbər tuta bilmir. Şübhəsiz ki, bu qədərsiz dərdin kədərindən şahın ox qəddi kaman kimi əyilir. Gecə-gündüzü ahu-zar içində keçir.

Bu bir həqiqətdir ki, orta əsrlər dövrünə məxsus xarici istismarçıların, yerli istilaçıların tez-tez basqınları, talanları həmin dövrün tarixini işıqlandıran salnaməçilər, söz sənətkarları, fikir korifeyləri kimi bu danılmaz tarixi fakt və dəlillər Fədai yaradıcılığından da yan keçməmişdir. Şair əsərdə həmin səltənətdə Hərami adlı birisinin növbəti təcavüzü nəticəsində tale Kirman şahının qismətinə qədərsiz bir xoşbəxtlik bəxş etməsini təsvir edir. Belə ki, Ziyad hərami uşağı təsadüfən tapır və övladı olmadığı üçün onu oğulluğa götürür. Və bu məzlum körpənin adını Xudadad qoyur:

Vəli evladdan məhrum bir zat,
Həmişə eylər idi fikri-övlad,
Gəlib çatdıqda ol dəm çün bulağə,
Sataşdı görzləri bikəs uşağə[2].

Fədai əsərdə Bəxtiyarı mərd, qəlbitəmiz gözəl fəzilət, ədəb, mərifət sahibi olan bir hünərpərvər, qoçaq və şücaətli igid kimi xüsusiyyətlərini də önə çəkir. Şair həm də bu şahzadə oğlunu mahir at çapan, qılınc toqquşduran, sərrast ox süzdürən, bacarıqlı səyyad kimi ov ovlayan, habelə yüksək fiziki vərdişlərə malik pəhləvan cüssəli bir oğuz əreni kimi təqdim edir:

---

[1] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 18-19.
[2] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 20.

Yetişdi, oğlan oldu bir cavanmərd,
Bərabər dura bilməz ona heç fərd,
Fəsahət m0ülkünün sultanı bir gənc
Bəlaqət bağının bağbanı bir gənc.
İgidlər içrə qeyrətmənd çoxdu,
Gözəllikdə ona manənd yoxdu,
At oynatmaqda misali pəhləvandı,
Ox atmaqda əvəzsiz qəhrəmandı[1].

Günlərin birində şikara çıxan Ziyad hərami dəstəsi növbəti basqın zamanı tale onların üzünə gülmür. Belə ki, daha sərt, daha amansız, daha döyüşkən, fiziki güc və qüvvə baxımdan qat-qat yüksək olan dəstə qarşısında döv gətirə bilməyən quldurlar təqib olunurlar. Həmin tutulan cəlalilər arasında Xudadadda olur. Şübhəsiz ki, Kirman şahı öz oğlunu qətiyyən tanıya bilmir, zira bu gənc oğlan Azadbəxtin çox xoşuna gəlir.

Beləliklə, təcavüə məruz qalan hərami dəstəsindən xeyli pul alıb buraxırlar. Və padşahı həddən çox özünə valeh edən Bəxtiyarı Kirman şahı onu saraya gətirir. Şah onu sarayda böyük ixtiyar sahibi edir. İntəhasız kamal və qabiliyyəti ilə ətrafdakıların dərin nüfuzunu qazanmış Bəxtiyarın sarayda hörmət və izzəti günü-gündən artır. Lakin, çox təəssüf ki, mərdliyi, kişiliyi və mənliyinə hörmət sayəsində ad-sanı şöhrətlənən Bəxtiyara qarşı saray vəzirləri tərəfindən xəbislik və riyakarlıq hissi baş qaldırır. Tez bir zaman kəsiyində rütbəsi, səlahiyyətləri artırılan Bəxtiyarın paxıl və nankar düşmənləri daha da çoxalır.

Əsərdə göstərilir ki, bir gün sadəlövh, cavanbəxt Bəxtiyar qeyri-ixtiyari olaraq şahın yataq otağına gəlir. Şah isə gəncin bu əməlindən şübhələnməyə başlayır. Bu an sarayın kəmfürsət, pis niyyətli vəzirlərinin əlinə qisas üçün sanki girəvə düşür, böhtan üçün bir bəhanə yaranır. Beləliklə, bu məzlum bəxtiqara Bəxtiyar şahın hərəminə xəyanətdə suçlandırılaraq, onu həmin əmələ görə töhmətləndirirlər. Odur ki, sarayda şaha özünü məhrəm göstərən bədnam, cılız qəlbli, ikiüzlü nadürüst vəzirlər Bəxtiyara ciddi cəza verməyə təhrik edirlər. Lakin sağlam təfəkkürü və fəhm-fərasəti, iti zehni, çevik düşüncəsi ilə seçilən Bəxtiyar padşahın hüzurunda müntəzir ol0arkən hər dəfə dərin məna yüklü çox məzmunlu və dəyərli bir nağıl danışır. Və həmin şirin, maraqlı nağılı diqqətlə və bütün varlığı ilə dinləyib ona sanki məftun olan şah, Bəxtiyarın qətlinə fərman verməyi unudub həmin cəza tədbirini təxirə salır. Beləliklə, Bəxtiyar bu minvalla mütəmadi olaraq şahın yanına gəlib, hər dəfə də gözəl məzmunlu şirin bir nağıl danışır və bu tədbir axşama qədər davam etdiyindən, həm də nağıldakı bəşəri hisslər, humanist keyfiyyətlər padşahın hiss və həyəcanlarına sığal çəkib sakitləşdirir, onu xeyirxah, nəcib və ülvi hisslərlə əsəblərini tumarlayıb onun qəlbinə, ruhuna sanki sirayət edib sakitləşdirib ovundurur, şah xislətində rəhmdillilik tərbiyə edir. Bəxtiyar bu səpgidə padşaha on nağıl danışır. Nəhayət, şahda Bəxtiyara qarşı zülm və qəddarlığın işartısını görməyən vəzirlər qiyam qaldırırlar. Odur ki, Kirman şahı təngə gəlib Bəxtiyarı dara çəkmək məcburiyyətində qalır.

Əsərin məzmununu gözəl bir sonluqla başa vuran Fədai göstərir ki, şah Bəxtiyarı asdırmaq anında Ziyad hərami iltimasa gəlir. Quldurbaşı əhvalatı bütün təfsilatı ilə nəql edir və şah öz doğma oğlunu tanıyır, habelə tez əmr verir ki, bütün müxənnət vəzirlərini bəd əməllərinə görə layiqincə cəzalandırsınlar.

---

[1] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 21.

Fədai «Sabir nağılı»nda xalqın təəssübünü çəkən, onun qeydinə qalan, zülmə, despota, ictimai ədalətsizliyə qarşı mübarizə aparan fədakar oğulların cəfakeşliyini alqışlayır, bu şəxslərin hünər və rəşadət göstərmələrini, onların fiziki yetkinliyi, fiziki mədəniyyəti ilə əlaqədəndirir. Şair məlun, yazıq, əfəl və bədbin adamların mütiliyini, acizliyini onların əqli və fiziki şikəstliyi kimi qəbul edir. Onun fikrincə, ya rəyyət ol, ya sultan, fərqi yoxdur, sən mərdliyi, ərdəmliyi, məğrurluğu özündə yaşatmalısan, bu amal və məslək yolunda çalışmağı daim özünə mənəvi borc bilməlisən. Yalnız bu prinsip əsasında tərbiyə, insanda dərin əqidə formalaşdıra bilər.

Fədai yaradıcılığında sağlam həyat tərzinin əhəmiyyəti barədə də bəzi açıqlamalar verir. Onun fikrincə, zərərli adətlərə (spirtli içkilər, narkotik maddələr və s. Kimi) meyl edən kəslər yalnız özlərini deyil, həm də mənsub olduğu ailənin, cəmiyyətin, ictimaiyyətin bir üzvü kimi öz mənəvi-əxlaqi borcu qarşısında məsuliyyət daşıyır. Şair «Bəxtiazima sərgüzəşti»ndə günlərini keyf-işrət məclislərində şərab içib meyxoşluq edən nadan hökmdarın çirkin, naqis əməllərini nəql edir. Sərxoşluğa qurşanan şahın düşmən ordusu qarşısında tab gətirməyib məğlub olaraq ölkəni bədbəxt vəziyyətə salmasının başlıca səbəbini iradi cılızlıqda, əxlaqi düşkünlükdə səciyyələndirən Fədai, meyin, hüşyarlığın gətirdiyi əmsalsız bəlanın acı nəticəsini belə təqdim edir:

Var idi ol zaman sultani-qafil,
Adı Bəxtazima, məğrurü cahil.
Həmişə mail olmuşdu şərabə,
Yetişməzdu hesabü bihesabə.

Şair göstərir ki, əyyaşlığa qurşanan şah xalqın düşdüyü vəziyyətdən bixəbər olur, düşmənin isə başsız qalmış ölkəni işğal etmək üçün əlinə fürsət düşür. Çıxılmaz vəziyyətdə qalan şah vətəndən qaçaraq, özü ilə birgə olan bir neçə nökər-naibi ətrafına toplayıb düşmən üzərinə qüvvə yeritməyi buyurur. Vətənin müdafiəsinə qalxan qeyrətli oğullar, yenilməz pəhləvanlar bir anda cəm olurlar. Bu vaxt iki dəliqanlı ordu üz-üzə dayanır.

Fədai qəhrəmanlıq motivləri ilə dolğuq olan «Bəxtazima nağılı»nda bahadır cüsəlli hünərvər türk övladlarının fiziki mədəniyyətdən, pəhləvanlıq şücaətindən söhbət açaraq onları döyüş meydanlarındakı hərbi bilik, bacarıq və vərdiş xüsusiyyətləirini bir daha önə çəkir. Əsərdə türkün cahangir oğullarının hələ neçə əsr bundan əqdəm hərb təliminin incə sirləri, vuruş maneraları, onun taktiki sirləri və s.barədə yüksək qabiliyyətə malik olmalarından da bəhs edir:

Yeridi hər tərəfdən çün ələmlər,
Bir-birinə çün əl açdı ləşgər,
Döyüşdü qeyrət ilə pəhləvanlar!
Yeridi iki yandan mövc qanlar…[1]

Şair həmin hekayətdə yaraqlanıb yasaqlanaraq qarşı-qarşıya dayanmış qorxmaz qəlb sahibi olan türkün cürətli bahadır oğullarının cəngə atılması, bu qanlı savaşda hünər göstərmələri üçün tapşırıq gözləmələri heyrət doğurur:

Çalındı kərana cəm' oldu ləşgər.
İkisi bir-birə durdu bərabər…
Müxalif ləşgərindən gəldi bir ər,
Əlində nizə, belində xəncər,

---

[1] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 103-104.

Suvar olmuş səməndi-bad rəftar,
Dilavər, pəhləvan, mərdanə, cərrar…[1]

Göründüyü kimi, başdan-başa qəhrəmanlıq motivləri üzərində köklənmiş Fədainin «Bəxtiyarnamə» əsərində türk gənclərinin alplıq,ərdəmlik xüsusiyyətlərinin başlıca qayəsini onların fiziki təkmilləşməsində, daha doğrusu, fiziki kamillik zirvəsinə ucalması kontekstində verilir.

Fədai döyüş meydanında qaplan kimi cövlan eyləyən, rəqibinə hərbə-zorba gələn aslan biləkli, nər ürəkli heybətli oğulların şücaətliliyini vəsf edərək onların məhz səbatlı, comərd, kişi keyfiyyətlərə qadir olduğunu yaddan çıxarmır:

Çağırar: ər olan meydanə gəlin!
Müxənnət gəlməsin, mərdanə gəlsin!
Bu gün meydan içində əjdəhalər,
Mənə şirü pələng olmaz bərabər…[2]

Beləliklə, əsərdə qənimət əldə etmək məqsədi ilə yağıların Bəxtazima torpağına həmləsi və bu məmləkətini igid ərənlər tərəfindən onların qanlı döyüşlə qarşılaşması da göstərilir. Poemada yenilməz Bəxtazima qoşununun düşmən ordusunu darmadağın edərək, onları kütləvi canlı itkiyə məruz qalaraq talan olunması da qeyd edilir.

Şair əsərin «Bəxtiyarın padşah sərgüzəşini nağıl etməsi» müsəlman əhlinin yüksək fiziki güc və qüvvəsinə, habelə mətin iradi-əxlaqi keyfiyyətlərə malik olması sayəsində onların tarix boyu haqq, ədalət uğrunda apardıqları qovğa və savaşlarda daim cəngavərlik göstərmələrini də vurğulayır.

Fədai igidlik və qəhrəmanlıq motivləri ilə zəngin olan bu əsərində, həm də idmanın bir sıra növlərini özündə birləşdirən ayrı-ayrı fiziki təmrinlərin adlarına da toxunur. Şair orta əsrlərdə xalqın ovçuluğa yalnız ərzaq təlabatını, məişət ehtiyacları kimi iqtisadi tələbatının ödənilməsindən irəli çıxan bir problem kimi deyil, həm də onların mərd, dözümlü, cəsur ərənlərin hazırlanması baxımdan ölkədə həmin peşəyə şücaətli döyüşçülərin yetişdirilməsi problemi kimi olduğunu da qeyd edir. Əsərin başlanğıcında Kirman şahın öz izdihamlı ov dəstəsilə birgə şikara çıxmasını şair bədii ifadə vasitəsi kimi yüksək ustalıqla nəzmə çəkir:

O gün çıxmışdı sultan da şikarə.
Gəzərkən çölləri tapmaq üçün ov
Olub bir nazənin hüsnünə ov…[3]

Fədai "Bəxtiyarnamə"də idmanın üzgüçülük növü barədə bəzi nüanslara toxunur. Beləki, «Bəxtiyarın tacir macərasını nağıl etməsi» hekayətində şair Azadbəxtin padşaha söylədiyi nağıldan görünür ki, hələ neçə əsrlər bundan əqdəm də xalqımızın bahadır oğulları arasında çoxlu üzgüçülər olubmuş. Sahilsiz dəryaları, ucsuz-bucaqsız göl və çayları istənilən üsulla üzməyi bacaran oğuz igidlərinin idmanın üzgüçülük növündə göstərdikləri fiziki bilik, bacarıq və vərdişlər parlaq əksini tapır.

Həmin hekayətdə cəld, çevik, fiziki ustalıqları ilə heyrətamiz hərəki bacarıq və vərdişlər göstərən türk qəvvasları (üzgüçüləri) barədə folklor nümunələrimizdə, klas-

---

[1]Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 106.
[2] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 106.
[3] Yenə orada, s. 9.

sik ədəbiyyatımızda dönə-dönə qeyd edilsə də, bu məsələ Fədai yaradıcılığında da yan keçməyib.

Biyabanda pərişan hal getdi,
Gəlib ol dəmdə bir dəraye etdi,
Yetişdi, gördü çün bir cəm qəvvas
Oturmuş, eyləmişlər məcmei-xas[1].

Orta əsrlər Azərbaycan poeziyasının layiqli söz cahangirləri, fikir bahadırları arasında öncül yeri olan Fədai kimi sənətkarların yaradıcılıqlarından layiqincə bəhrələnmək müasir dövrümüzdə daha böyük əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Fədai. Bəxtiyarnamə. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1957, 157 s.


## «…ВЫХОДИТЬ НА МУЖЕСТВЕННОЕ ПОПРИЩЕ»
**(В контексте творчество Федаи)**


**МОБИЛЬ АСЛАНЛЫ ГУНТЮРК**


## РЕЗЮМЕ


Статья посвящено вопросам физического воспитания в произведении «Бахтиярнаме» классического поэта Федаи. Главный герой ( Бахтияр) изображен не только как умный, эрудированный, терпеливом, делавой, но и как человек, обладаюший высокими физическими качествами и героическими особенностями.

Автор подчеркнул в своим творении исключительное значение физического совершенства, уровня развития военных учений в быту народа, также огромную роль физической и умственной способност героев в деле устоновлении сациальной справедливости.


## "...COME TO THE RING AGAINST ME IF YOU ARE A FIGHTER"
**(In the context of Faday's creative activity)**


**MOBIL ASLANLIH HUNTURK**


## SUMMARY


This article is dealing with the problems of physical education met in the work of " Bakhtiyarnamah" by our classical poet Faday.

The heroe of this work Bakhtiyar is show as an educated, clever, patient and an industrious person, The same time he is a person of high physical ability and heroic qualities ofcourse.

The outher puts forward a number of elements of physical perfection, Military training and the heroic deeds used by our forefathers in their every day life and improved by them. They as well used those elements of physical perfection and the other to fight for justice and for future of people.


[1] Fədai. Bəxtiyarnamə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1957, s. 37.